**Bakıda Pre-COP29 tədbiri işə başlayıb**

Oktyabrın 10-da Bakıda Pre-COP29 tədbiri işə başlayıb.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Mərkəzində keçirilən tədbir "Ambisiyanı artırmaq və iqlim fəaliyyətinə təkan vermək" mövzusuna həsr olunub.

Əvvəlcə COP29-un müəyyən edilmiş Prezidenti, Azərbaycanın ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev Prezident İlham Əliyevin tədbir iştirakçılarına müraciətini oxuyub.

Açılış mərasimində COP29-un müəyyən edilmiş Prezidenti, Azərbaycanın ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri və COP28-in prezidenti Sultan Əl Cəbir, BMT Baş katibinin birinci müavini Amina Mohammed, təşkilatın İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının icraçı katibi Saymon Still, Köməkçi icra orqanının sədri Nabil Munir çıxış edəcəklər.

Tədbir iki gün davam edəcək.

**AZƏRTAC**
**2024, 10 oktyabr**